ᵽ8

**Azərbaycan Milli Kitabxanası ilə**
**Misir Milli Kitabxanası və Arxivi**
**arasında əməkdaşlıq haqqında**
**Anlaşma Memorandum**

Sonradan "Tərəflər" adlandırılacaq Azərbaycan Milli Kitabxanası ilə Misir Milli Kitabxanası və Arxivi

elmi və mədəni irsin toplanması və qorunmasında kitabxanaların rolunu vurğulayaraq,

İki ölkə arasındakı siyasi, diplomatik və mədəni əlaqələrin inkişafında elmi və mədəni irsin mübadiləsinin əhəmiyyətini anlayaraq və Tərəflərin qeyd edilən sahələrdəki potensialını yüksək qiymətləndirərək

Aşağıdakılar barədə razılığa gəldilər:

**Maddə 1**

Tərəflər mübadilə, rəqəmsallaşdırılma və resursların əlçatan edilməsi, tədqiqat vasitələrinin mübadiləsi, nadir kitabların bərpası və mühafizəsi və insan resurslarının inkişafı sahələrində əməkdaşlıq edəcəklər.

**Maddə 2**

Tərəflər xüsusilə də kitabxanaçılıq və informasiya sahəsində təcrübə və bilik mübadiləsi məqsədilə aşağıdakı sahələrdə əməkdaşlıqlarını inkişaf etdirəcəklər:

- Birgə təlim kursları və seminarların təşkili
- Nadir кitabların qorunması, bərpası və mühafizəsi texnikasında elmi təcrübələrin mübadiləsi:
- Rəqəmsal indekslərin və kitabxanaların mövcud edilməsi
- Kitabxana sahəsində elimi-tədqiqatların mübadiləsi və nəşri
- Kitab mübadiləsinin inkişafı
- Birgə kitab sərgilərinin təşkili

**Maddə 3**

Tərəflər maksimum 10 gün müddətinə kitabxanaçıların mübadiləsini etməyə razılaşırlar.

Kitabxanaçıların yerləşdirmə (qonaqlama) xərcləri qəbul edən ölkə tərəfindən, səfər (yol) xərcləri isə göndərən ölkə tərəfindən qarşılanacaqdır. Mübadilə ediləcək kitabxanaçıların sayı qarşılıqlı razılaşma ilə illik baza əsasında təyin olunacaq.

Tərəflərdən biri xüsusi bir sahədə mütəxəssis yardımı xahiş etdiyi halda ev sahibi olan ölkə yuxarıda qeyd edilən bütün xərcləri ödəyəcəkdir.

**Maddə 4**

Bu razılaşma Tərəflərin qarşılıqlı yazılı razılığı əsasında dəyişdirilə bilər.

**Maddə 5**

Əməkdaşlıq haqqında Memorandum imzalandığı tarixdən qüvvəyə minir və üç (3) il müddətində qüvvədə olacaq və bu Memorandumun bitməsindən altı ay (6) əvvəl bir tərəf digər Tərəfə Memorandumu bitirmə istəyi barədə məlumat verməzsə, növbəti 3 il müddətinə avtomatik olaraq yenilənəcəkdir.

Bakı şəhərində 29 sentyabr 2017-ci il tarixində iki orijinal nüsxədə Azərbaycan, ərəb və ingilis dillərində imzalanmışdır və hər biri bərabər qüvvəyə malikdirlər. Hazırki Memorandumun təfsiri ilə bağlı fikir ayrılığı olduğu halda, ingilis dilində olan variantına üstünlük veriləcək.

Azərbaycan Milli Kitabxanası

Prof. Kərim Tahirov

Direktor

Misir Ərəb Respublikasının

Milli Kitabxanası və Arxivi

DR. Əhməd Əl Şoki

Sədr